# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/31** **23 avqust 2016-cı il**

**Məcburi auditdən yayınmanın qarşısının alınması ilə əlaqədar əlavə tədbirlər barədə**

Ölkəmizdə şəffaflığın artırılması, iqtisadi uğurlarının davamlığının və sosial rifahın təmin edilməsi, maliyyə intizamının gücləndirilməsi, səmərəliyin yüksəldilməsi istiqamətində auditin təsirliyini artırmaq məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məcburi auditdən keçməyən təsərrüfat subyektlərinə müraciətlərin hazırlanması və göndərilməsi məqsədəmüvafiq hesab edilsin.
2. Məcburi auditdən keçməyən təsərrüfat subyektlərinə müraciətlərin hazırlanması və göndərilməsi ilə əlaqədar aşağıdakı təkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

Səbuhi Gülməmmədov – Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi

***İşçi qrupu rəhbərinin müavinləri:***

Zamin Hüseynov – Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitənin sədri, "MAK Azərbaycan LTD" MMC-nin direktoru

Elnur İbrahimov – Auditorlar Palatasının Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri, Sərbəst auditor

Rövşən Cəfərli – Analitik informasiya şöbəsinin müdiri

***İşçi qrupunun üzvləri:***

Fəqan Qarayev – Auditorlar Palatası sədrinin müşaviri

Nazim İsmayılov – Maliyyə və təsərrüfat idarəsinin Təsərrüfat bölməsinin müdiri

Kənan Tağızadə – Auditin təşkili və akkreditasiya şöbəsinin müdir müavini

İmam Baxış Zeynallı – Analitik informasiya şöbəsinin müdir müavini

Nərmin Əhmədli – Auditin təşkili və akkreditasiya şöbəsinin aparıcı mütəxəssisi

Leyla Məmmədova – Analitik informasiya şöbəsinin aparıcı mütəxəssisi

3. İşçi qrupuna tapşırılsın ki:

3.1 Məcburi auditdən keçməyən təsərrüfat subyektlərinə göndərilmək üçün müraciətin hazırlanmasını və onlara göndərilməsini 1 (bir) ay müddətində təmin etsinlər.

3.2 Təsərrüfat subyektlərindən daxil olmuş sorğu və müraciətlərin vaxtında cavablandırılmasını təxirəsalınmadan həyata keçirsinlər.

3.3 Təsərrüfat subyektlərinə göndərilən məktubun mətni və məktubun göndərildiyi ünvanların siyahısı Palatanın internet saytında yerləşdirilsin.

4. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, məcburi auditlə bağlı təsərrüfat subyektləri tərəfindən edilən müraciətlərə diqqətlə yanaşsınlar və göstərdikləri auditor xidmətini beynəlxalq audit standartlarına uyğun aparmaqla, haqsız rəqabətə yol vermədən, audit müqavilələri bağlanarkən təsərrüfat subyektlərinin maliyyə imkanları nəzərə alınmaqla yüksək səviyyədə həyata keçirsinlər.

5. İşçi qrupunun rəhbərinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinin rəisinə (V.Rəhimov) tapşırılsın ki, məcburi auditdən keçməklə əlaqədar elanın hazırlanmasını və KİV ilə yayılmasını təmin etsinlər.

6. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**